# SDU-nun 60 illik yubileyi qeyd edilib






Sumqayıt Dövlət Universitetinin 60 illik yubileyi təntənə ilə qeyd edilib. Bu barədə AZƏRTAC-a universitetdən bildirilib. Sumqayıt Dövlət Dram Teatrında təşkil olunan yubiley mərasimində əvvəlcə foyedə universitetin müxtəlif dövrlərdə fəaliyyətini əks etdirən fotosərgiyə baxış keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Universitetin rektoru professor Elxan Hüseynov dövlət və hökumət rəsmilərinə, Milli Məclisin deputatlarına, dünyanın müxtəlif ölkələrindən olan alimlərə, ali məktəb rektorlarına mərasimdə iştirak etdiklərinə görə təşəkkürünü bildirib. Rektor SDU-nun ötən 60 ildə keçdiyi tarixi inkişaf yolundan, beynəlxalq əlaqələrindən, qazanılan nailiyyətlərdən və qarşıda duran vəzifələrdən söz açıb: "Təməli 1962-ci ildə qoyulmuş SDU qabaqcıl beynəlxalq təcrübədən, milli təhsil sisteminin uğurlarından və özünün 60 illik zəngin ənənələrindən bəhrələnməklə uğurlu addımlar atıb. Yarandığı vaxtdan etibarən universitet üzərinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirib, respublikamızla yanaşı, bir sıra digər ölkələr üçün elmi-pedaqoji kadr hazırlanması işini müvəffəqiyyətlə həyata keçirib. Dövlət başçısının yüksək diqqəti və məqsədyönlü göstərişləri əsasında atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə, yüksək nəticələrin qazanılmasına xidmət edir. Bu da ölkəmizdə milli kadr potensialının kəmiyyət və keyfiyyət baxımından yetişdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfələr verir. Dövlət başçısı tərəfindən ali təhsilin əlçatanlığının artırılması, tələbələrin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə yüksəkixtisaslı, peşəkar kadrların hazırlanması, ali təhsildə rəqabət mühitinin formalaşdırılması sahəsində əhəmiyyətli qərarlar qəbul olunub.

Azərbaycan təhsilinin milli və bəşəri ənənələr üzərində inkişafının əsas perspektivlərini müəyyənləşdirib həyata keçirmək istiqamətində ali təhsil müəssisələrinin üzərinə çox şərəfli və məsuliyyətli vəzifələr düşür. Ali təhsil müəssisələrinin vəzifəsi təkcə peşəkar kadrlar yetişdirmək deyil, həm də sözün həqiqi mənasında dövlətinə, millətinə layiqli vətəndaşlar yetişdirməkdir. Respublikamızın bütün ali təhsil ocaqları kimi, Sumqayıt Dövlət Universitetinin də özünəməxsus yeri və dəst-xəti var".

Rektor qeyd edib ki, illər ötdükcə Sumqayıt Dövlət Universiteti məhz ulu öndər Heydər Əliyevin tarixi xidmətləri, onun siyasi varisi Prezident İlham Əliyevin diqqəti və qayğısı sayəsində ölkənin və regionun nüfuzlu elm-tədris mərkəzinə çevrilib: "Bu gün universitetin 60 illik yubileyini qalib dövlətin vətəndaşları kimi, torpaqları işğaldan azad olunmuş qalib xalqın nümayəndələri kimi böyük sevinc və iftixarla qeyd edirik. Bu Qələbənin qazanılmasında bütün Azərbaycan gəncləri kimi, Sumqayıt Dövlət Universitetinin məzunları və tələbələri də bənzərsiz qəhrəmanlıq və əzmkarlıq nümunəsi göstərdilər. SDU-nun çoxsaylı kollektivi bu qəhrəmanların - şəhidlik və qazi mərtəbəsinə yüksələnlərin hər birinin əziz xatirəsini yüksək hörmət və ehtiram hissi ilə yad edir, şərəfli adlarını daim uca tutur. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə SDU-nun bir qrup əməkdaşı "Əməkdar müəllim" fəxri adına layiq görülüb və "Tərəqqi" medalı ilə təltif edilib. Bu yüksək təltiflərə görə dövlətimizin başçısına universitetin kollektivi adından dərin minnətdarlığımı bildirirəm".

Daha sonra Sumqayıt Dövlət Universitetinin fəaliyyətindən və qazandığı uğurlardan bəhs edən videoçarx nümayiş olunub.

Universitetin 60 illik yubileyi münasibətilə təhsil ocağının kollektivini təbrik edən elm və təhsil naziri Emin Əmrullayev ölkə başçısı İlham Əliyevin Sərəncamı ilə təltif olunan əməkdaşlara ali dövlət mükafatlarını təqdim edərək, bu gün ölkəmizdə təhsilin inkişafı istiqamətində həyata keçirilən islahatların artıq öz bəhrəsini verdiyini bildirib: "Müəllim əməyi həmişə yüksək qiymətləndirilir, dövlətimiz təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalır. Bu isə təhsil işçilərinin daha məsuliyyət və vicdanla çalışmaları üçün stimul yaradır. Ölkənin elmi-intellektual potensialının inkişafına əvəzsiz töhfələr vermiş Sumqayıt Dövlət Universiteti ötən dövr ərzində böyük inkişaf yolu keçib, Azərbaycanın sənaye mərkəzi olan Sumqayıt şəhəri və region üçün mütəxəssis hazırlığı sahəsində əhəmiyyətli nailiyyətlər əldə edib. Bu gün də müstəqil Azərbaycanın uğurlu gələcəyini təmin edəcək peşəkar kadrların yetişdirilməsi yolunda tarixi missiyasını uğurla davam etdirir. Əminəm ki, 60 illik təcrübəsi olan bu ali təhsil ocağı müasir qlobal çağırışlara uyğun yüksək peşəkarlığa və səriştəliliyə malik, rəqabətədavamlı mütəxəssislərin hazırlanmasına və insan kapitalının davamlı inkişafına, elmi-intellektual mühitin formalaşmasına bundan sonra da öz layiqli töhfəsini verəcək".

Sonra Prezident İlham Əliyevin Sumqayıt Dövlət Universitetinin 60 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə sərəncamları, Elm və Təhsil Nazirliyinin "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı və fəxri fərmana layiq görülmüş əməkdaşların siyahısı oxunub.

Tədbirdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov çıxış edərək bütün universitet kollektivini yubiley münasibətilə təbrik edib, elm və təhsil naziri Emin Əmrullayevi və fəxri qonaqları Sumqayıt şəhərində görməkdən məmnunluğunu bildirib: "Sumqayıtın yeganə ali təhsil məktəbi öz tarixi ilə öyünməyə haqqı olan, bu gün qazandığı nailiyyətlərini qabaqcıl ali məktəblərlə bir sırada nümayiş etdirə bilən və nəhayət, gələcək prioritet məsələlərin həllinə imza atmağı bacaran ali təhsil ocağıdır. Universitetin maddi-texniki imkanları da daha da güclənir, beynəlxalq əlaqələri durmadan genişlənir və bir elm ocağı kimi Sumqayıt bütün dünyada layiqincə, uğurla təmsil edir".

SDU-nun 60 illik yubileyinə həsr olunmuş mərasimdə təbrik məktubları səsləndirilib.

Rusiya Federasiyasının Ufa Dövlət Neft Texniki Universitetinin rektoru dosent Oleq Baulin Sumqayıt Dövlət Universitetinin elm, təhsil sahəsindəki özünəməxsus yerindən və ziyalı mühitinin formalaşmasındakı rolundan danışıb: "SDU ilə Ufa Dövlət Neft Texniki Universiteti arasında sıx çoxşaxəli əlaqələr Rusiya — Azərbaycan Universitetləri Assosiasiyasının yaradılmasından sonra qurulub. Hazırda bu əlaqələrimiz uğurla davam etdirilir".

Mərasimdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov universitet rəhbərliyini və kollektivi 60 illik yubileyi münasibətilə təbrik edərək onlara yeni-yeni nailiyyətlər arzulayıb.

Çinin Heksi Universitetinin Azərbaycandakı rəsmi nümayəndəsi Sonq Quanqxiao bildirib ki, iki ölkə arasında qədim tarixi olan dostluq münasibətləri müasir dövrümüzdə yeni müstəviyə qədəm qoyub, belə ki, Azərbaycanla Çin arasında əlaqələr yüksələn xətlə inkişaf edir.

Türkiyənin Hacettepe Universitetinin professoru, Sumqayıt Dövlət Universitetinin fəxri doktoru Şükrü Haluk Akalın da SDU-nun kollektivini 60 illik yubileyi münasibətilə təbrik edib.

Tədbirin sonunda universitetin marşı səsləndirilib.